AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

# SOSİAL, İQTİSADİ İNKİŞAF

1

YANVAR

Məlumatlardan istifadə edərkən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinad etmək lazımdır.

**Xüsusi işarələr:**

"-" hadisə baş verməmişdir

"..." məlumat mövcud deyil

"0,0" məlumat çox kiçik rəqəmlə xarakterizə olunur

"x" müqayisə mümkün deyil

**İzahlar:**

-cari ilə dair məlumatlar növbəti dəqiqləşdirilmiş statistik hesabatlar əsasında sonrakı nəşrlərdə korrektə edilə bilər

-bəzi hallarda yekunla toplananların cəmi arasındakı fərq rəqəmlərin yuvarlaqlaşdırılması ilə izah olunur

-bu nəşrdə əvvəlki dövrlərə dair məlumatlarla əvvəlki nəşrlərdə həmin dövrlərə aid məlumatlar arasındakı bəzi fərqlər beynəlxalq praktikaya uyğun olaraq yekun statistik hesabatlar əsasında ilkin məlumatlarda aparılmış dəqiqləşdirmələrlə izah olunur

# M Ü N D Ə R İ C A T


| | | |
|---|---|---|
| **I** | **MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR** | **5** |
| | **2025-ci ilin yanvar ayında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri** | **5** |
| **II** | **REAL SEKTOR** | |
| | Ümumi daxili məhsul | 12 |
| | Sənaye | 15 |
| | Tikinti | 37 |
| | Kənd təsərrüfatı | 42 |
| | Nəqliyyat | 46 |
| | İnformasiya və rabitə | 51 |
| | İstehlak bazarı | 52 |
| | Əmtəə bazarı | 53 |
| | İctimai iaşə xidmətləri | 61 |
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | 63 |
| | Qiymət indeksləri | 67 |
| | Kredit qoyuluşları | 82 |
| | Qiymətli kağızlar bazarı | 84 |
| | Məşğulluq və işsizlik | 85 |
| **III** | **DÖVLƏT SEKTORU** | |
| | Dövlət büdcəsi | 92 |
| **IV** | **XARİCİ SEKTOR** | |
| | Xarici ticarət | 97 |
| **V** | **SOSİAL SEKTOR** | |
| | Əhalinin gəlirləri | 106 |
| | Əməkhaqqı | 107 |
| | Əhalinin əmanətləri və manatın məzənnəsi | 108 |
| | Hüquqpozmalar | 110 |
| | Demoqrafik vəziyyət | 115 |
| | **İqtisadi rayonlar** | **121** |
| | **Metodoloji izahatlar** | **179** |

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**Məruzə № 1**
**17 fevral 2025-ci il**

# 2025-ci İLİN YANVAR AYINDA ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

2025-ci ilin yanvar ayında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 9,4 milyard manatlıq və ya 2024-cü ilin yanvar ayı ilə müqayisədə 0,9 faiz az **ümumi daxili məhsul** istehsal edilmişdir. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər istehsalı 4,0 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 1,0 faiz artmışdır.

Əlavə dəyərin 39,9 faizi sənaye, 10,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,2 faizi tikinti, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,0 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrində, 20,7 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 10,8 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 922,1 manata bərabər olmuşdur.

**Sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2025-ci ilin yanvar ayında 5,5 milyard manatlıq və ya əvvəlki ilin yanvar ayı ilə müqayisədə 2,6 faiz az sənaye məhsulu istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 4,5 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 9,9 faiz artmışdır.

Sənaye məhsulunun 61,0 faizi mədənçıxarma sektorunda, 31,9 faizi emal sektorunda, 6,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 6,6 faiz, əmtəəlik qaz hasilatı isə 4,8 faiz azalmışdır.

Emal sektorunda ağacın emalı və ağacdan məmulatların istehsalı 47,9 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 39,2 faiz, kimya sənayesi məhsullarının istehsalı 35,9 faiz, neft məhsullarının istehsalı 26,7 faiz, hazır metal məmulatlarının istehsalı 26,2 faiz, içkilərin istehsalı 26,0 faiz, qida məhsullarının istehsalı 24,7 faiz, elektrik avadanlıqlarının istehsalı 20,6 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 12,2 faiz, tikinti materiallarının istehsalı 2,2 faiz artmış, kompüter, elektron və optik məhsulların istehsalı 3,6 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 3,7 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 4,2 faiz, mebel istehsalı 7,5 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 17,1 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 20,7 faiz, əczaçılıq məhsullarının istehsalı 30,2 faiz, tütün məmulatlarının istehsalı 35,5 faiz, kağız və karton istehsalı 36,7 faiz, geyim istehsalı 43,3 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 51,5 faiz, maşın və avadanlıqların istehsalı 52,6 faiz, sair sənaye məhsullarının istehsalı 56,1 faiz, poliqrafiya məhsullarının istehsalı isə 62,9 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 5,4 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 32,4 faiz artmışdır.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 fevral 2025-ci il vəziyyətinə 896,4 milyon manatlıq hazır məhsul olmuşdur.

**Kənd təsərrüfatında** 2025-ci ilin yanvar ayında diri çəkidə 47,3 min ton ət, 159,7 min ton süd, 193,7 milyon ədəd yumurta və 25,5 min ton tərəvəz istehsal olunmuşdur. 2024-cü ilin yanvar ayı ilə müqayisədə ət istehsalı 2,0 faiz, yumurta istehsalı 2,9 faiz, tərəvəz istehsalı 24,3 faiz artmış, süd istehsalı isə 0,6 faiz azalmışdır.

2024-cü ilin yanvar ayı ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 2,2 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 1,3 faiz, bitkiçilik məhsulları istehsalı 20,8 faiz artmışdır.

2025-ci ilin yanvar ayında **əsas kapitala** 787,0 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 50,0 faiz az investisiya yönəldilmişdir. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 40,5 faiz, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 54,8 faiz az olmuşdur. İstifadə olunmuş investisiyanın 504,8 milyon manatı və ya 64,1 faizi məhsul istehsalı sahələrinə, 109,8 milyon manatı (14,0 faizi) xidmət sahələrinə, 172,4 milyon manatı (21,9 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 473,8 milyon manatını və ya 60,2 faizini daxili investisiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 566,0 milyon manatı və ya 71,9 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2025-ci ilin yanvar ayında 18,4 milyon ton **yük** və 157,2 milyon **sərnişin** daşınmışdır. 2024-cü ilin yanvar ayı ilə müqayisədə yük daşınması 5,5 faiz, sərnişin daşınması isə 7,9 faiz artmışdır. Yüklərin 55,7 faizi avtomobil, 31,4 faizi boru kəməri, 8,2 faizi dəmir yolu, 4,5 faizi dəniz, 0,2 faizi isə hava nəqliyyatı ilə daşınmışdır. Sərnişinlərin 87,9 faizi avtomobil, 11,4 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**İnformasiya və rabitə** müəssisələri tərəfindən göstərilmiş 273,5 milyon manatlıq xidmətlərin 73,0 faizi əhali sektoruna aid olmuşdur. 2025-ci ilin yanvar ayında göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi əvvəlki ilin yanvar ayı ilə müqayisədə 5,8 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 82,8 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

2025-ci ilin yanvar ayında **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 4842,8 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 1112,9 milyon manatlıq **ödənişli**

**xidmət** göstərilmişdir. 2024-cü ilin yanvar ayı ilə müqayisədə əmtəə dövriyyəsi 3,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 8,5 faiz artmış, ticarət şəbəkəsində 2636,5 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 2206,3 milyon manatlıq qeyri-ərzaq malları satılmışdır.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2024-cü ildə ölkənin **xarici ticarət** dövriyyəsi 47396,4 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 26338,4 milyon dollarını və ya 55,6 faizini ölkədən ixrac olunmuş məhsulların, 21058,0 milyon dollarını (44,4 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 5280,4 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2023-cü illə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 1,3 faiz artmış, real ifadədə 3,5 faiz, o cümlədən ixrac 7,4 faiz azalmış, idxal isə 3,1 faiz artmışdır.

2024-cü ildə qeyri neft-qaz məhsullarının ixracı 3356,5 milyon dollar təşkil etmiş və 2023-cü ilə nisbətən faktiki qiymətlərlə 0,3 faiz artmış, real ifadədə isə 13,0 faiz azalmışdır.

2025-ci ilin yanvar ayında **istehlak qiymətləri indeksi** əvvəlki ilin yanvar ayı ilə müqayisədə 105,4 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 105,0 faiz, qeyri-qida malları üzrə 102,6 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 108,4 faiz təşkil etmişdir.

2024-cü ilin ilkin məlumatlarına əsasən muzdlu işçilərin **orta aylıq nominal əməkhaqqı** 2023-cü ilə nisbətən 8,1 faiz artaraq 1009,2 manat təşkil etmişdir.

2025-ci ilin yanvar ayında **əhalinin gəlirləri** nominal ifadədə 2024-cü ilin yanvar ayı ilə müqayisədə 6,2 faiz artaraq 6,0 milyard manat olmuşdur.

Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən 2025-ci ilin yanvar ayında **dövlət büdcəsinə** 4051,4 milyon manat vəsait daxil olmuş, büdcədən 2339,6 milyon manat vəsait

xərclənmiş, büdcənin icrasında 1711,8 milyon manatlıq profisit yaranmışdır.

Mərkəzi Bankın məlumatlarına görə, 2025-ci il yanvar ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının **kredit portfeli** milli valyuta ekvivalentində 29288,2 milyon manat təşkil etmiş, onun 24373,5 milyon manatı uzunmüddətli kreditlər olmuşdur. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 1,5 faizini təşkil etmişdir.

Əhalinin banklardakı **əmanətlərinin** milli valyuta ekvivalentində məbləği 2025-ci il yanvar ayının 1-nə 14661,9 milyon manat olmuşdur.

2025-ci ilin yanvar ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə **orta məzənnəsi** 1,70 manata, 1 Avroya – 1,76 manata, 100 Türk lirəsinə – 4,79 manata, 100 Rusiya rubluna – 1,66 manata bərabər olmuşdur.

2024-cü ilin yanvar-dekabr aylarında **əhalinin sayı** 44119 nəfər və ya 0,4 faiz artaraq 2025-ci il yanvar ayının 1-i vəziyyətinə 10224889 nəfərə çatmışdır.

Cədvəl 1

## MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| Göstəricinin adı | 2025-ci ilin yanvar ayı, faktiki | 2025-ci ilin yanvar ayı 2024-cü ilin yanvar ayına nisbətən, faizlə | Məlumat üçün 2024-cü ilin yanvar ayı 2023-cü ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi daxili məhsul, milyon manat** | **9 430,2** | **99,1** | **105,0** |
| o cümlədən qeyri neft-qaz ÜDM | 6 091,7 | 101,0 | 112,3 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **922,1** | **98,7** | **104,5** |
| **Sənaye məhsulu, milyon manat** | **5 483,6** | **97,4** | **98,5** |
| o cümlədən qeyri neft-qaz sənayesi | 1 683,0 | 109,9 | 108,9 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat** | **787,0** | **50,0** | **137,4** |
| o cümlədən qeyri neft-qaz sektoruna | 471,8 | 45,2 | 134,1 |
| ondan qeyri neft-qaz sənayesinə | 121,8 | 370,8 | 76,9 |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **547,8** | **102,2** | **101,2** |
| o cümlədən: bitkiçilik | 29,1 | 120,8 | 100,8 |
| heyvandarlıq | 518,7 | 101,3 | 101,2 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **18,4** | **105,5** | **102,0** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **157,2** | **107,9** | **105,3** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **273,5** | **105,8** | **111,8** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **4 842,8** | **103,7** | **103,4** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat** | **1 112,9** | **108,5** | **104,9** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **4 051,4** | **116,9** | **86,5** |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | **2 339,6** | **135,7** | **118,2** |
| **Dövlət büdcəsinin profisiti, milyon manat** | **1 711,8** | **x** | **x** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **5 967 ,8** | **106,2** | **104,5** |
| **Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat** | **583,6** | **105,7** | **103,9** |
| **Əhalinin banklardakı əmanətləri, 2025-ci il 01 yanvar vəziyyətinə, milyon manat** | **14 661,9** | **113,2** | **110,3** |

...ardı

| A | 1 | 2 | 3 |
|---|---|---|---|
| **Kredit qoyuluşları, 2025-ci il 01 yanvar vəziyyətinə, milyon manat** | **29 288,2** | **122,1** | **118,8** |
| o cümlədən vaxtı keçmiş kreditlər | 449,1 | 102,6 | 73,7 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **1 009,2*** | **108,1**** | **111,2***** |
| **İstehlak qiymətlərinin indeksi** | **x** | **105,4** | **101,7** |
| **Əhalinin sayı, 2025-ci il 01 yanvar vəziyyətinə, min nəfər** | **10 224,9** | **100,4** | **100,5** |
| **Xarici ticarət dövriyyəsi[1], milyon ABŞ $** | | | |
| **faktiki qiymətlərlə** | **47 396,4*** | **101,3**** | **83,2***** |
| **müqayisəli qiymətlərlə** | **x** | **96,5**** | **99,1***** |
| o cümlədən: **ixrac** | | | |
| faktiki qiymətlərlə | 26 338,4* | 89,3** | 70,8*** |
| müqayisəli qiymətlərlə | x | 92,6** | 98,2*** |
| ondan **qeyri neft-qaz ixracı** | | | |
| faktiki qiymətlərlə | 3 356,5* | 100,3** | 109,8*** |
| müqayisəli qiymətlərlə | x | 87,0** | 103,9*** |
| **idxal** | | | |
| faktiki qiymətlərlə | 21 058,0* | 121,8** | 118,9*** |
| müqayisəli qiymətlərlə | x | 103,1** | 101,9*** |

**Qeyd:**
* 2024-cü il.
** 2024-cü il 2023-cü ilə.
*** 2023-cü il 2022-ci ilə.
[1] Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

# Ümumi Daxili Məhsul istehsalı

2025-ci ilin yanvar ayında ölkədə 9430,2 milyon manatlıq və ya əvvəlki ilin yanvar ayı ilə müqayisədə 0,9 faiz az ümumi daxili məhsul istehsal olunmuşdur.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 4,0 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 1,0 faiz artmışdır.

ÜDM istehsalının 39,9 faizi sənaye, 10,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,2 faizi tikinti, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,0 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 20,7 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,8 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 922,1 manata bərabər olmuşdur.

Cədvəl 2

## Ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar | | Əvvəlki ilin müvafiq ayına nisbətən, müqayisəli qiymətlərlə, faizlə |
|---|---|---|---|
| | 2025 | 2024*) | |
| **Ümumi Daxili Məhsul** | **9430,2** | **9173,7** | **99,1** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 290,7 | 261,0 | 102,3 |
| Sənaye | 3763,5 | 3757,1 | 96,8 |
| o cümlədən:<br>mədənçıxarma sənayesi | 3003,0 | 3152,6 | 94,3 |
| emal sənayesi | 596,4 | 466,3 | 110,3 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 143,9 | 121,5 | 105,4 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 20,2 | 16,7 | 132,4 |
| Tikinti | 394,8 | 528,8 | 73,7 |
| Ticarət: nəqliyyat vasitələrinin təmiri | 972,4 | 937,1 | 103,7 |
| Nəqliyyat və anbar təsərrüfatı | 673,6 | 613,4 | 107,4 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 190,0 | 155,5 | 115,9 |
| İnformasiya və rabitə | 174,5 | 164,7 | 105,8 |
| Digər sahələr | 1953,7 | 1800,1 | 101,5 |
| **Məhsula və idxala xalis vergilər** | **1017,0** | **956,0** | **103,3** |

*) 2024-cü ilin yanvar ayının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Cədvəl 3

## Neft-qaz və qeyri neft-qaz sektorlarında ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar | | Əvvəlki ilin müvafiq ayına nisbətən, müqayisəli qiymətlərlə, faizlə |
|---|---|---|---|
| | 2025 | 2024*) | |
| **Ümumi Daxili Məhsul** | **9430,2** | **9173,7** | **99,1** |
| o cümlədən: neft-qaz sektoru | 3338,5 | 3409,9 | 96,0 |
| qeyri neft-qaz sektoru | 6091,7 | 5763,8 | 101,0 |

*) 2024-cü ilin yanvar ayının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Qrafik 1



## Sənaye

2025-ci ilin yanvar ayında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 5,5 milyard manatlıq və ya 2024-cü ilin yanvar ayı ilə müqayisədə 2,6 faiz az sənaye məhsulu istehsal edilmiş, məhsul istehsalı neft-qaz sektorunda 4,5 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 9,9 faiz artmışdır.

Sənaye məhsulunun 61,0 faizi mədənçıxarma, 31,9 faizi emal, 6,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 77,4 faiz olmuşdur. Ümumi istehsalın 88,6 faizi sənaye məhsullarının istehsalı, 11,4 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Cədvəl 4

**Sənaye istehsalı indeksləri,**
sabit qiymətlərlə, faizlə

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| **2024-cü il** | | |
| Yanvar | 101,1 | 98,5 |
| Fevral | 93,1 | 100,1 |
| Mart | 93,8 | 100,9 |
| Aprel | 90,5 | 100,6 |
| May | 113,2 | 100,4 |
| İyun | 96,6 | 100,9 |
| İyul | 107,7 | 101,7 |
| Avqust | 89,9 | 100,6 |
| Sentyabr | 100,1 | 101,3 |
| Oktyabr | 102,5 | 102,2 |
| Noyabr | 94,5 | 101,1 |
| Dekabr | 123,2 | 101,1 |
| **2025-ci il** | | |
| Yanvar | 97,4 | 97,4 |

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 fevral 2025-ci il vəziyyətinə 896,4 milyon manatlıq hazır məhsul olmuşdur.

Ehtiyatların 50,4 faizi Bakı, 15,1 faizi Sumqayıt, 2,5 faizi Gəncə, 2,3 faizi Şirvan şəhərlərinin, 1,3 faizi Naxçıvan Muxtar Respublikasının, qalan hissəsi isə digər şəhər və rayonların sənaye müəssisələrinin anbarlarında qalmışdır. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 69,6 milyon manat məbləğində digər məhsullar da mövcud olmuşdur.

## Mədənçıxarma sənayesi

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 3,3 milyard manat olmaqla, əvvəlki ilin müvafiq ayına nisbətən 5,0 faiz azalmışdır.

Cədvəl 5

**Mədənçıxarma sənayesi üzrə istehsalın həcmi**

| Fəaliyyət növlərinin adı | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq ayına nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| **Mədənçıxarma sənayesi** | **3346,0** | **95,0** |
| Xam neft və təbii qaz hasilatı | 3108,4 | 94,1 |
| Metal filizlərinin hasilatı | 34,9 | 2,1 d. |
| Mədənçıxarma sənayesinin digər sahələri | 13,6 | 2,1 d. |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi | 189,1 | 96,8 |

Sahənin əsas məhsulu olan əmtəəlik neft hasilatı 2,3 milyon ton, əmtəəlik təbii qaz hasilatı isə 3,1 milyard kub metr təşkil etmişdir. Əmtəəlik neft hasilatı əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 6,6 faiz, əmtəəlik qaz hasilatı isə 4,8 faiz azalmışdır.

Cədvəl 6

## Mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsullar

| Məhsul növləri | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Xam neft və təbii qaz hasilatı** | | | |
| Xam neft (qaz kondensatı daxil olmaqla), min ton | 2308,2 | 93,5 | 289,7 |
| ondan əmtəəlik | 2301,1 | 93,4 | 289,7 |
| Təbii qaz, milyon kub metr | 3978,9 | 93,6 | - |
| ondan əmtəəlik | 3112,2 | 95,2 | - |
| **Metal filizlərinin hasilatı** | | | |
| Mis konsentratı, ton | 220,3 | 3389,2 | 98,5 |
| Gümüş, kq | 375,8 | 132,6 | 625,9 |
| Qızıl, kq | 236,2 | 188,5 | 207,4 |
| **Mədənçıxarma sənayesinin digər məhsulları** | | | |
| İnşaat üçün əhəng daşı, min ton | 33,0 | 60,4 | - |
| Gips və anhidrit, min ton | 51,1 | 233,3 | 52,6 |
| Tikinti qumu, min ton | 130,6 | 255,6 | 10,9 |
| Çınqıl, qırmadaş, xırda çay daşı və çaxmaq daşı, min ton | 255,8 | 113,3 | 86,2 |
| Bentonit, min ton | 24,2 | 254,7 | 147,6 |
| Duz, ton | 7319,4 | 111,2 | 33,8 |

Qrafik 2

**Neft və qaz hasilatının aylar üzrə dinamikası**




## Emal sənayesi

Emal sənayesində 2025-ci ilin yanvar ayında 1748,9 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir,

Cədvəl 7

**Emal sənayesində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| **2024-cü il** | | |
| Yanvar | 107,3 | 117,7 |
| Yanvar-fevral | 113,7 | 118,1 |
| Yanvar-mart | 110,0 | 112,9 |
| Yanvar-aprel | 110,7 | 114,0 |
| Yanvar-may | 109,5 | 111,0 |
| Yanvar-iyun | 107,4 | 110,9 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| Yanvar-iyul | 107,2 | 110,8 |
| Yanvar-avqust | 107,6 | 110,4 |
| Yanvar-sentyabr | 108,1 | 111,4 |
| Yanvar-oktyabr | 108,2 | 111,6 |
| Yanvar-noyabr | 103,8 | 109,6 |
| Yanvar-dekabr | 102,2 | 110,3 |
| **2025-ci il** | | |
| Yanvar | 110,3 | 104,4 |

Qrafik 3

**Emal sənayesi üzrə istehsal indeksinin dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 8

## Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə |
|---|---|---|
| **Emal sənayesi –cəmi** | **1748,9** | **110,3** |
| o cümlədən: qida məhsullarının istehsalı | 492,9 | 124,7 |
| içki istehsalı | 51,7 | 126,0 |
| tütün məmulatlarının istehsalı | 61,1 | 64,5 |
| toxuculuq sənayesi | 49,0 | 139,2 |
| geyim istehsalı | 6,8 | 56,7 |
| dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | 1,8 | 112,2 |
| mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 1,8 | 147,9 |
| kağız və karton istehsalı | 19,3 | 63,3 |
| poliqrafiya məhsullarının istehsalı | 10,2 | 37,1 |
| neft məhsullarının istehsalı | 503,1 | 126,7 |
| kimya sənayesi | 143,2 | 135,9 |
| əczaçılıq məhsullarının istehsalı | 0,9 | 69,8 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 41,2 | 96,3 |
| tikinti materiallarının istehsalı | 106,1 | 102,2 |
| metallurgiya sənayesi | 73,4 | 95,8 |
| hazır metal məmulatlarının istehsalı | 26,6 | 126,2 |
| kompüter, elektron və optik məhsulların istehsalı | 3,0 | 96,4 |
| elektrik avadanlıqlarının istehsalı | 13,3 | 120,6 |
| maşın və avadanlıqların istehsalı | 35,6 | 47,4 |
| avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 10,2 | 79,3 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 2,2 | 82,9 |
| mebellərin istehsalı | 20,7 | 92,5 |
| zərgərlik məmulatları, musiqi alətləri, idman mallarının və tibb avadanlıqlarının istehsalı | 7,5 | 43,9 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 67,3 | 48,5 |

Əvvəlki ilin müvafiq ayı ilə müqayisədə içki istehsalında 26,0 faiz, qida məhsullarının istehsalında 24,7 faiz artım, tütün məmulatlarının istehsalında isə 35,5 faiz azalma müşahidə olunmuşdur.

Bu sahələrin əsas məhsullarından makaron məmulatlarının istehsalı 3,6 dəfə, viski, brendi istehsalı 2,9 dəfə, meyvə şirələrinin istehsalı 63,5 faiz, duru bitki yağlarının istehsalı isə 5,7 faiz artmışdır.

Cədvəl 9

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Qida məhsullarının istehsalı | İçki istehsalı | Tütün məmulatlarının istehsalı |
| **2024-cü il** | | | |
| Yanvar | 108,7 | 106,3 | 128,3 |
| Yanvar-fevral | 103,9 | 128,9 | 99,4 |
| Yanvra-mart | 97,4 | 124,5 | 115,6 |
| Yanvar-aprel | 100,7 | 127,5 | 119,2 |
| Yanvar-may | 104,1 | 116,0 | 118,4 |
| Yanvar-iyun | 104,6 | 114,9 | 118,0 |
| Yanvar-iyul | 106,2 | 115,8 | 111,2 |
| Yanvar-avqust | 107,1 | 116,5 | 111,2 |
| Yanvar-sentyabr | 107,0 | 119,9 | 112,9 |
| Yanvar-oktyabr | 108,7 | 118,1 | 114,3 |
| Yanvar-noyabr | 109,3 | 116,2 | 108,0 |
| Yanvar-dekabr | 110,5 | 115,7 | 104,1 |
| **2025-ci il** | | | |
| Yanvar | 124,7 | 126,0 | 64,5 |

Qrafik 4

**Qida məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 10

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Qida məhsulları** | | | |
| Kolbasa məmulatları, ton | 2454,8 | 107,0 | 57,3 |
| Meyvə şirələri, min dkl | 395,4 | 163,5 | 880,8 |
| Meyvə-tərəvəz konservləri, ton | 12454,7 | 103,8 | 19160,1 |
| Duru bitki yağları, ton | 3959,9 | 105,7 | 4222,0 |
| Marqarin, ton | 5174,4 | 110,6 | 5658,5 |
| Qaymaq, xama, ton | 766,1 | 100,9 | 0,1 |
| Kərə yağı, ton | 2194,9 | 104,6 | 14,6 |
| Pendir və kəsmik, ton | 4347,3 | 100,1 | 103,1 |
| Unlu qənnadı məmulatlar, ton | 5786,8 | 99,6 | 1039,8 |
| Makaron məmulatları, ton | 1193,0 | 3,6 d. | - |
| Şəkər, qənd, min ton | 22,9 | 7,4 d. | 9,7 |
| Şəkərli qənnadı məmulatları, ton | 572,8 | 86,3 | 58,0 |
| Çay, ton | 726,1 | 71,0 | 52,7 |

…ardı

| Məhsul növləri | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Qida duzu, min ton | 7,2 | 110,8 | 2,6 |
| **İçki məhsulları** | | | |
| Alkoqolsuz içkilər, min dkl | 2887,1 | 114,2 | 977,7 |
| Şirinləşdirilməmiş sular, min dkl | 1783,4 | 89,7 | 953,4 |
| Viski, brendi, min dkl | 67,0 | 2,9 d. | 241,8 |
| Üzüm şərabı, min dkl | 50,8 | 82,7 | 650,8 |
| Araq, min dkl | 117,6 | 138,0 | 178,1 |
| Pivə, min dkl | 277,2 | 128,9 | 274,7 |
| **Tütün məmulatları** | | | |
| Siqaret və siqarlar, milyon ədəd | 864,4 | 64,9 | 961,9 |
| Tütün, ton | 150,3 | 42,6 | 768,2 |

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı** sahələrində 57,6 milyon manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar ayı ilə müqayisədə toxuculuq sənayesində 39,2 faiz, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında 12,2 faiz artım, geyim istehsalında isə 43,3 faiz azalma müşahidə olunmuşdur.

Cədvəl 11

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| **2024-cü il** | | | |
| Yanvar | 118,0 | 127,5 | 2,1 d. |
| Yanvar-fevral | 106,7 | 137,1 | 2,2 d. |
| Yanvar-mart | 109,0 | 121,1 | 137,3 |
| Yanvar-aprel | 91,4 | 119,1 | 125,2 |
| Yanvar-may | 88,9 | 121,3 | 112,0 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| Yanvar-iyun | 86,1 | 108,1 | 104,4 |
| Yanvar-iyul | 90,2 | 103,8 | 124,5 |
| Yanvar-avqust | 89,7 | 99,6 | 92,0 |
| Yanvar-sentyabr | 92,4 | 99,9 | 98,4 |
| Yanvar-oktyabr | 95,2 | 103,9 | 100,2 |
| Yanvar-noyabr | 93,6 | 128,6 | 107,6 |
| Yanvar-dekabr | 100,9 | 124,7 | 109,3 |
| | | **2025-ci il** | |
| Yanvar | 139,2 | 56,7 | 112,2 |

Cədvəl 12

## Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Toxuculuq məhsulları** | | | |
| Pambıq mahlıcı, ton | 15491,5 | 161,3 | 38005,0 |
| Pambıq ipliyi, ton | 1392,2 | 105,7 | 4913,7 |
| Pambıq parçalar, min kv.m | 2618,2 | 102,9 | 274,9 |
| Pambıq yataq ağları, min ədəd | 10,9 | 3,6 d. | 7,5 |
| Xalça və xalça məmulatları, min kv.m | 0,3 | 100,0 | 5,2 |
| **Geyim istehsalı** | | | |
| Üst geyim, min ədəd | 77,3 | 2,0 d. | 28,1 |
| İstehsalat və peşə komplektləri, min ədəd | 134,6 | 42,6 | 65,1 |
| Alt geyim, min ədəd | 90,3 | 3,9 d. | 39,7 |
| Sair geyim, min ədəd | 452,6 | 67,8 | 1609,7 |
| Corab məmulatları, min cüt | 111,2 | 55,4 | 25,0 |
| **Dəri və dəridən məmulatlar, ayaqqabılar** | | | |
| Emal edilmiş dəri, min kv.m | 0,7 | 175,0 | 140,0 |
| Ayaqqabı, min cüt | 43,6 | 126,0 | 62,2 |

**Neft məhsullarının istehsalı** sahəsində istehsalın ümumi dəyəri 503,1 milyon manat olmaqla, əvvəlki ilin yanvar ayı ilə müqayisədə 26,7 faiz artmışdır. Neft məhsullarından neft bitumu istehsalı 62,9 faiz, sürtkü yağları istehsalı 41,7 faiz, ağ neft istehsalı 40,5 faiz, qazoylların (dizel yanacağının) istehsalı 26,1 avtomobil benzini istehsalı 7,1 faiz artmış, neft koksunun istehsalı isə 9,7 faiz azalmışdır.

Cədvəl 13

**Neft məhsullarının istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Avtomobil benzini, min ton | 124,0 | 107,1 | 28,8 |
| Ağ neft, min ton | 61,4 | 140,5 | 20,3 |
| Qazoyllar (dizel yanacağı), min ton | 226,0 | 126,1 | 103,4 |
| Mazut, min ton | 18,0 | - | 4,7 |
| Sürtkü yağları, min ton | 3,4 | 141,7 | 6,7 |
| Neft koksu; neft bitumu və neft məhsullarının digər qrupları, min ton | 66,8 | 133,9 | 44,4 |
| ondan: neft bitumu, min ton | 20,2 | 162,9 | 16,3 |
| neft koksu, min ton | 17,6 | 90,3 | 26,4 |

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı** sahələrində 185,3 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar ayı ilə müqayisədə kimya sənayesi məhsullarının istehsalı 35,9 faiz artmış, əczaçılıq məhsullarının istehsalı 30,2 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı isə 3,7 faiz azalmışdır.

Kimya sənayesi məhsullarından polietilen istehsalı 30,3 faiz, propen (propilen) istehsalı 26,6 faiz, etilen istehsalı 19,1

faiz, karbamid istehsalı 3,6 faiz, rezin və plastik kütlə məmulatlarından plastmas butulkalar, flakonlar və oxşar məmulatlar istehsalı 3,0 dəfə, digər plastmasdan tikinti məmulatları istehsalı 2,3 dəfə, polietilendən başqa, digər plastmas kisələr və çantalar istehsalı 2,2 dəfə, məsaməli plastik kütlədən sair plastinlər, lövhələr istehsalı 95,6 faiz, plastmas çubuklar, millər və profillər istehsalı isə 67,7 faiz artmışdır.

Cədvəl 14

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Kimya sənayesi | Əczaçılıq məhsullarının istehsalı | Rezin və plastik kütlə məmulatlarının istehsalı |
| **2024-cü il** | | | |
| Yanvar | 98,6 | 2,8 d. | 141,0 |
| Yanvar-fevral | 114,7 | 151,0 | 128,4 |
| Yanvar-mart | 116,7 | 100,9 | 126,2 |
| Yanvar-aprel | 108,6 | 106,4 | 130,5 |
| Yanvar-may | 105,1 | 129,6 | 125,7 |
| Yanvar-iyun | 107,8 | 153,5 | 126,7 |
| Yanvar-iyul | 108,2 | 169,1 | 125,3 |
| Yanvar-avqust | 108,7 | 169,4 | 123,8 |
| Yanvar-sentyabr | 109,6 | 147,4 | 123,0 |
| Yanvar-oktyabr | 110,3 | 168,4 | 120,4 |
| Yanvar-noyabr | 106,0 | 2,0 d. | 117,7 |
| Yanvar-dekabr | 106,5 | 181,5 | 118,0 |
| **2025-ci il** | | | |
| Yanvar | 135,9 | 69,8 | 96,3 |

Qrafik 5

## Kimya sənayesi məhsullarının istehsalının dinamikası
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 15

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki illin müvafiq ayına nisbətən, faizlə | 01.02.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kimya sənayesi məhsulları** | | | |
| Təsirsiz qazlar, min kub metr | 3618,4 | 104,0 | 50,5 |
| ondan azot, min kub metr | 1858,7 | 94,9 | 47,0 |
| Lak-boya məmulatları, ton | 2380,1 | 144,8 | 529,1 |
| Qeyri-üzvi kimyəvi maddələr, ton | 2000,0 | 88,5 | 7380,0 |
| ondan yod, ton | 15,5 | 92,3 | 7,9 |
| Üzvi kimyəvi maddələr, min ton | 80,0 | 93,8 | 34,5 |
| ondan: etilen, min ton | 15,6 | 119,1 | 2,2 |
| propen (propilen), min ton | 13,8 | 126,6 | 0,8 |
| metanol (metil spirti), min ton | 38,4 | 78,4 | 26,4 |
| Etil spirti, min dkl | - | - | 51,6 |

…ardı

| Məhsul növləri | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki illin müvafiq ayına nisbətən, faizlə | 01.02.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Gübrə və azot birləşmələri, min ton | 61,2 | 103,6 | 55,3 |
| ondan karbamid, min ton | 61,2 | 103,6 | 55,3 |
| İlkin formada plastik kütlə, min ton | 28,8 | 130,9 | 23,2 |
| ondan polietilen, min ton | 14,2 | 130,3 | 13,5 |
| Yapışqan və yapışdırıcı maddələr, min ton | 16,0 | 2,6 d. | 9,8 |
| **Əczaçılıq məhsullarının istehsalı** | | | |
| Dərmanlar, min manat | 388,8 | 33,0 | 549,9 |
| Tibbi maskalar, milyon ədəd | 0,6 | 3,0 d. | 6,8 |
| **Rezin və plastik kütlə məmulatlarının istehsalı** | | | |
| Plastmas çubuqlar, millər və profillər, ton | 834,7 | 167,7 | - |
| Sərt plastmasdan borular, borucuqlar, qolçaqlar və şlanqlar, ton | 2967,7 | 82,9 | 2259,6 |
| Polietilendən kisə və çantalar, ton | 1200,2 | 57,5 | 219,5 |
| Plastmas butulkalar, flakonlar və oxşar məmulatlar, min ədəd | 11133,0 | 3,0 d. | 16587,6 |
| Polietilendən başqa, digər plastmas kisələr və çantalar, ton | 248,8 | 2,2 d. | 442,0 |
| Döşəmə, divar və tavan üçün plastik kütlədən rulon və ya plitka şəklində örtük, min kv. metr | 20,8 | 77,9 | - |
| Digər plastmasdan tikinti məmulatları, ton | 366,2 | 230,9 | 453,3 |
| Məsaməli plastik kütlədən sair plastinlər, lövhələr, ton | 262,1 | 195,6 | 51,8 |

**Tikinti materiallarının istehsalı** sahəsində 2025-ci ilin yanvar ayında istehsalın ümumi dəyəri 106,1 milyon manat olmaqla, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 2,2 faiz artmışdır. Ay ərzində asfalt istehsalı 66,7 faiz, tikinti gipsi istehsalı 45,7 faiz, tikinti kərpiclərinin istehsalı 41,9 faiz, betondan yığma tikinti konstruksiyalarının istehsalı 40,7 faiz, sementdən, betondan kərpiclər və oxşar məmulatların istehsalı 35,2 faiz, sement istehsalı 30,7 faiz, beton istehsalı isə 5,1 faiz artmışdır.

Qrafik 6

**Tikinti materiallarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 16

**Tikinti materiallarının istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Tikinti şüşəsi, min kv. metr | 778,7 | 94,0 | 1174,1 |
| Tikinti kərpicləri, min kub metr | 57,6 | 141,9 | 7,2 |
| Sement klinkerləri, min ton | 347,8 | 100,6 | 379,1 |
| Sement, min ton | 328,8 | 130,7 | 91,8 |
| Əhəng, min ton | 2,0 | 100,0 | 5,7 |
| Gips məmulatlar, min ton | 7,0 | 97,2 | 6,9 |
| ondan tikinti gipsi, min ton | 6,7 | 145,7 | 1,7 |
| Sementdən, betondan kərpiclər və oxşar məmulatlar, min ton | 11,9 | 135,2 | 15,1 |
| Betondan yığma tikinti konstruksiyaları, min kub metr | 3,8 | 140,7 | - |
| Beton, min ton | 355,4 | 105,1 | 5,8 |
| Asfalt, min ton | 2,5 | 166,7 | - |

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı** sahələrində 2025-ci ilin yanvar ayında 100,0 milyon manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə hazır metal məmulatlarının istehsalı sahəsində 26,2 faiz artım, metallurgiya sənayesi məhsullarının istehsalında isə 4,2 faiz azalma müşahidə olunmuşdur. 2025-ci ilin yanvar ayında metallurgiya sənayesi üzrə alüminium məmulatları istehsalı 13,6 faiz azalmış, hazır metal məmulatlarının istehsalı sahəsi üzrə metaldan konstruksiyaların istehsalı 52,4 faiz, izolyasiyası olmayan çoxnaqilli məftil, troslar və oxşar məmulatların istehsalı isə 32,5 faiz artmışdır.

Cədvəl 17

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində indekslərin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| **2024-cü il** | | |
| Yanvar | 148,7 | 118,3 |
| Yanvar-fevral | 175,9 | 97,6 |
| Yanvar-mart | 149,7 | 99,9 |
| Yanvar-aprel | 155,0 | 112,6 |
| Yanvar-may | 136,5 | 110,2 |
| Yanvar-iyun | 132,0 | 113,9 |
| Yanvar-iyul | 129,2 | 119,5 |
| Yanvar-avqust | 127,7 | 123,3 |
| Yanvar-sentyabr | 129,9 | 138,1 |
| Yanvar-oktyabr | 130,3 | 138,9 |
| Yanvar-noyabr | 121,7 | 135,7 |
| Yanvar-dekabr | 127,1 | 138,9 |
| **2025-ci il** | | |
| Yanvar | 95,8 | 126,2 |

Cədvəl 18

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Metallurgiya sənayesi məhsulları** | | | |
| Polad tökmə, min ton | 29,7 | 103,5 | 4,3 |
| Armatur, min ton | 35,6 | 102,9 | 32,8 |
| Polad borular, min ton | 13,9 | 3,9 d. | 3,7 |
| Emal edilməmiş qurğuşun, alüminium, sink, nikel və s., min ton | 1,9 | 76,0 | 2,8 |
| Alüminium məmulatları, ton | 4642,1 | 86,4 | 4768,5 |
| Mis məftil, ton | - | - | - |
| **Hazır metal məmulatlarının istehsalı** | | | |
| Metaldan konstruksiyalar, ton | 2138,8 | 152,4 | 11286,1 |
| İzolyasiyası olmayan çoxnaqilli məftil, troslar və oxşar məmulatlar, ton | 657,4 | 132,5 | 9,0 |
| Metaldan sair məmulatlar, ton | 1590,3 | 95,0 | - |

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı** sahələrində 2025-ci ilin yanvar ayında 16,3 milyon manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə elektrik avadanlıqlarının istehsalı 20,6 faiz artmış, kompüter, elektron və optik məhsulların istehsalı isə 3,6 faiz azalmışdır. Ay ərzində əvvəlki ilin yanvar ayı ilə müqayisədə məişət soyuducuları və dondurucularının istehsalı 3,8 dəfə, noutbukların istehsalı 19,0 faiz, stolüstü kompüterlərin istehsalı 12,6 faiz artmış, radioyayım və ya televiziya üçün qəbuledici qurğusu olmayan ötürücü aparaturaların istehsalı 12,8 faiz, avtomatik tənzimləmə və ya idarə üçün cihaz və aparatların hissələri və ləvazimatlarının istehsalı isə 77,8 faiz azalmışdır.

Cədvəl 19

## Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Kompüter, elektron və optik məhsulların istehsalı | Elektrik avadanlıqlarının istehsalı |
| **2024-cü il** | | |
| Yanvar | 167,9 | 124,9 |
| Yanvar-fevral | 116,2 | 118,3 |
| Yanvar-mart | 107,9 | 116,8 |
| Yanvar-aprel | 131,3 | 117,7 |
| Yanvar-may | 137,5 | 122,2 |
| Yanvar-iyun | 174,4 | 118,5 |
| Yanvar-iyul | 173,6 | 133,9 |
| Yanvar-avqust | 172,2 | 139,9 |
| Yanvar-sentyabr | 142,9 | 134,1 |
| Yanvar-oktyabr | 104,3 | 129,6 |
| Yanvar-noyabr | 107,1 | 129,6 |
| Yanvar-dekabr | 104,7 | 132,8 |
| **2025-ci il** | | |
| Yanvar | 96,4 | 120,6 |

Cədvəl 20

## Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kompüter, elektron və optik məhsulların istehsalı** | | | |
| Noutbuklar, ədəd | 552 | 119,0 | - |
| Stolüstü kompüterlər, ədəd | 260 | 112,6 | - |
| Ölçmə cihazları, min ədəd | 39,9 | 130,4 | - |
| **Elektrik avadanlıqlarının istehsalı** | | | |
| Güc transformatorları, ədəd | 42 | 63,6 | - |
| Elektrik tənzimləyici cihazlar, ədəd | 178 | 95,2 | - |

…ardı

| Məhsul növləri | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Digər elektrik naqilləri, ton | 856,2 | 121,7 | 763,0 |
| Məişət soyuducuları və dondurucuları, ədəd | 99 | 3,8 d. | 69 |

**Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı** sahələrində 2025-ci ilin yanvar ayında 48,0 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə sair nəqliyyat vasitələrinin istehsalı 17,1 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 20,7 faiz, maşın və avadanlıqların istehsalı isə 52,6 faiz azalmışdır. 2025-ci ilin yanvar ayında 235 ədəd və əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 171 ədəd az minik avtomobili istehsal olunmuşdur. Ay ərzində əvvəlki ilin müvafiq ayı ilə müqayisədə traktorların istehsalı 6,1 faiz azalmışdır.

Cədvəl 21

**Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Maşın və avadanlıqların istehsalı | Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | Sair nəqliyyat vasitələrinin istehsalı |
| **2024-cü il** | | | |
| Yanvar | 100,0 | 154,1 | 33,5 |
| Yanvar-fevral | 84,8 | 130,7 | 49,6 |
| Yanvar-mart | 80,5 | 99,6 | 54,9 |
| Yanvar-aprel | 83,2 | 122,5 | 72,7 |
| Yanvar-may | 80,5 | 131,3 | 81,6 |
| Yanvar-iyun | 72,5 | 148,0 | 52,0 |
| Yanvar-iyul | 71,3 | 149,9 | 54,8 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Maşın və avadanlıqların istehsalı | Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | Sair nəqliyyat vasitələrinin istehsalı |
| Yanvar-avqust | 70,4 | 136,7 | 47,4 |
| Yanvar-sentyabr | 59,9 | 153,4 | 47,2 |
| Yanvar-oktyabr | 56,8 | 158,4 | 47,2 |
| Yanvar-noyabr | 53,9 | 156,6 | 47,1 |
| Yanvar-dekabr | 48,6 | 144,7 | 49,7 |
| **2025-ci il** | | | |
| Yanvar | 47,4 | 79,3 | 82,9 |

Cədvəl 22

## Maşın və avadanlıqların, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Maşın və avadanlıqların istehsalı** | | | |
| Nasoslar, ədəd | 369 | 69,4 | 792 |
| ondan: ştanqlı quyu nasosları, ədəd | 368 | 71,0 | 743 |
| Kran, qapaq və klapanlar, ton | - | - | 71,3 |
| ondan fontan armaturu, ton | - | - | - |
| Traktorlar, ədəd | 46 | 93,9 | 11 |
| **Avtomobil, qoşqu və yarımqoşquların istehsalı** | | | |
| Minik avtomobilləri, ədəd | 235 | 57,9 | 141 |
| Yük avtomobilləri, ədəd | 8 | 12,7 | 4 |

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorları

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2025-ci ilin yanvar ayında 342,9 milyon manat dəyərində məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 45,8 milyon manat təşkil etmişdir.

Cədvəl 23

**Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında məhsul buraxılışı**

| Fəaliyyət növlərinin adı | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq ayına nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 342,9 | 105,4 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 45,8 | 132,4 |

Cədvəl 24

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2025-ci ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə |
|---|---|---|
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | | |
| Elektrik enerjisi, mln. kVt.s | 2346,4* | 104,7 |
| ondan əmtəəlik | 2264,9 | 104,5 |
| istilik elektrik stansiyalarının istehsalı | 2029,5 | 99,5 |
| ondan: tullantıların yandırılmasından alınan elektrik enerjisi | 18,3 | 110,6 |
| su elektrik stansiyalarının istehsalı | 216,8 | 182,2 |
| külək elektrik stansiyalarının istehsalı | 2,6 | 45,6 |
| günəş elektrik stansiyalarının istehsalı | 16,0 | 5,5 d. |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | | |
| Suyun təmizlənməsi və bölüşdürülməsi, mln. kub metr | 43,1 | 103,9 |

*) əsas fəaliyyəti elektrik enerjisinin istehsalı olmayan müəssisələr nəzərə alınmadan

# Tikinti

## Əsas kapitala yönəldilmiş investisiyalar

2025-ci ilin yanvar ayında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 787,0 milyon manat və ya 2024-cü ilin yanvar ayı ilə müqayisədə 50,0 faiz az investisiya yönəldilmişdir. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 40,5 faiz, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 54,8 faiz az olmuşdur. Ümumi sərmayənin 504,8 milyon manatı və ya 64,1 faizi məhsul istehsalı sahələrinin, 109,8 milyon manatı (14,0 faizi) xidmət sahələrinin, 172,4 milyon manatı (21,9 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşmüşdür.

Ümumi sərmayənin 23,9 faizi dövlət, 76,1 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Sərmayə qoyuluşunun 71,9 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

